# MƏNƏVİ DƏYƏRLƏR MİLLİ VARLIĞIN ƏSASIDIR



*Xəliyəddin XƏLİLLİ*

*(Əvvəli ötən saylarımızda)*

Deməli, ekzistensial psixi fəaliyyət Psixikada yaşamaq xüsusiyyətlərinin, **yaaşamaq uğrunda mübarizənin tam formalaşması üçün iki ümumi funksiyanı yerinə yetirir. Birincisi, yaşamaq xüsusiyyətlərində mövcudluğu, öz mövcudluğunu qavrayaraq onu mənimsəmək, subyektivləşdirməyə hazırlamaq və bu prosesləri tənzimləməkdir. İkinci ümumi funksiya isə öz mövcudluğunu qoruma və ümumi ekzistensial müdafiə, qoruma xüsusiyyətləridir.** Bu funksiyaların ikisi də Psixikada yaşamaq xüsusiyyətlərinin tam formalaşmasında paralel qarşılıqlı fəaliyyət göstərirlər.

Birinci funksiyanın fəaliyyətində fərd dünyanı, öz mövcudluğunu qavrayaraq **gündəlik fəaliyyətdə, sosial mübarizə** metodlarında onlardan istifadə edir.

Ekzistensial psixi fəaliyyətin ikinci ümumi funksiyası özünüqoruma funksiyasıdır. Keçmişdə də, elə indinin özündə də bu cür xüsusiyyətlər **müəmmalı, dərk edilməyən mahiyyətləri ilə nəzərləri cəlb edib. Bir dha qeyd edirik ki, əslində burada müəmmalı heç bir şey yoxdur.** Fərd mövcuddursa, yaşayırsa o, özünü qorumalı və müdafiə etməlidir. **Bunu dünyada yaşamaq və inkişaf etmək qanunauyğunluqları tələb edir.** Sadəcə olaraq bu cür hallar **gündəlik fəaliyyətimizdə** tez-tez tələb olunan və baş verən psixikadaxili **proseslər olduğundan** onları hiss etmək çox çətin olur. Ona görə ekzistensial psixi fəaliyyətin ikinci ümumi funksiyası olan **özünüqoruma xüsusiyyətləri əsasən asılı olmayan, dərk edilməyən formalarda yaranırlar. Yəni biz ekzistensial özünü müdafiə vasitəsilə gündəlik** həyatımızda dərk edilməsindən və dərk edilməməsindən **asılı olmayaraq öz mövcudluğumuzu qoruyuruq, təhlükə və məhvə doğru aparan bütün proseslərə qarşı aktiv reaksiya veririk".**

Göründüyü kimi, Ş.Dədəyev adi, ənənəvi, normal bir mühitdə dünyaya gələn uşağın, insanların təbii bir proses, gündəlik həyat hadisəsi kimi üzləşilən təhlükədən qorunma prosesində insan psixikasında baş verən proses və yaranan keyfiyyət xüsusiyyətlərindən bəhs edir.

**Budur Azərbaycan xalqının 30 illik məcburi köçkün həyatı, bir yataqxana otağında 5-10 nəfər insan məskunlaşıb, dəhlizlərdə də çarpayı qoyulub, hətta əl çantasını başının altına qoyub yatan uşaq var, dəhlizdən keçib bayıra getmək mümkün deyil, bəzən işıqlar** sönəndə vəziyyət daha da çətinləşir, yeniyetmələr ikinci mərtəbənin balkonundan tullanıb küçəyə çıxırlar, hətta 3-4-cü mərtəbədən kəndirlə balkonlardan keçib gedənlər olur. Belə binalarda dəfələrlə yanğınlar baş verirdi. Fövqəladı Hallar İdarəsinin köməyə gələn işçiləri binaya daxil ola bilmirlər. Normal binalardan fərqli olaraq hadisə zamanı burada insanlar çox səs-küy salmır, analar sakitcə uşaqların əlindən tutub dəhlizə çıxır və ya göstərilən yerdən sakitcə keçib gedir, yanğın söndürənlər yol açaraq yanğının mərkəzinə keçirlər. Və ya ilkin çadır düşərgələrində tez-tez yanğın hadisəsi baş verir. İnsanlar dərhal nəyi xilas etmək mümkündürsə götürüb, sakitcə alovun istisinə qızınırlar. Beləcə təhlükə adiləşmiş, dünyaya gələn yeni nəsil üçün adi gündəlik məişət hadisəsi kimi təsəvvür olunur.

Ermənilərin çaylarla axıtdıqları mina, digər partlayıcı və zəhər ölkə içərisində ölüm, fəlakət mənbəyinə çevrilmişdir; yay aylarında ərazilərin yandırılması ilə zəhərli həşəratlar yaşayış məhəllələrinə istiqamətləndirilir, qəfil təhlükələrlə insanlar üz-üzə qalır. Ermənilərin heç bir hərəkətini proqnozlaşdırmaq mümkün deyildi, istədikləri vaxt şəhərləri və kəndləri atəşə tutur, insanları, yaşayış və təsərrüfat binalarını məhv edirdilər. Ermənilərin hərəkətlərindən birbaşa ziyan çəkənlərlə başqalarını fərqləndirmək mümkün deyildi. Hamı hər an təhlükə altında idi. **Erməni Azərbaycanda həyatı təhlükəyə çevirmişdi. Millətləri qardaşlıq dünyası yaradacağına inandıran beynəlmiləl böyük qardaşın həyatı təhlükə mənbəyinə çevirən erməniliyin - şər qüvvənin yaradıcısı olmasının dərki ilə keçirdikləri sarsıntıdan qurtarmamışdılar ki, insanlıq naminə yardım üçün dünyada hüququn və azadlığın müdafiəçisi** kimi tanıdılmış "mədəni Avropa" və digər qüvvələrə əl uzadıldı. Onların da insan haqlarına qarşı kommunist ruslardan heç də az təcavüzkar, şər qüvvə olmadığı, Azərbaycan xalqı üçün **həyatı təhlükə mənbəyinə çevirən silah** ermənini ələ keçirmək üçün mübarizələri bütünlüklə aşkar oldu. Dərk olunan bu həyat hadisələri, adiləşmiş müharibə hadisələrilə bərabər Azərbaycan xalqından dünyaya bir analitik baxış da tələb etdi. Bu baxışda deyilir: Amma anlayırıq ki, əgər biz yaşayırıqsa və yaxud yaşamaq istəyiriksə, mövcudluğumuzu dərk etməli, onu müdafiə etməliyik. Dünyanı, mövcudluğu öz mövcudluğumuzla müqayisə etməli, yaranmış şəraitə uyğun fəaliyyət göstərməliyik, təhlükə və məhvə doğru aparan bütün proseslərə qarşı aktiv reaksiya verməliyik. Bu yaşamaq xüsusiyyətlərinin daxilində ekzistensial psixi fəaliyyətin reallaşdığı real mühit amilidir (3, 234).

Beynəlxalq imperializmin Azərbaycan türklərinin təbii-coğrafi şəraitinə, ekologiyasına, fiziki, mənəvi varlığına qarşı əsrlərlə yaratdığı, istifadə etdiyi erməni silahının qorunub yaşadılması və ona sahib olmaq uğrunda gedən mübarizə bu təhlükənin aradan qaldırılması üçün fəaliyyətə keçilməsi zəruriliyini anlatdı. Azərbaycan hakimiyyəti ATƏT və BMT-dən öz qərarlarına uyğun işğalçı erməni qoşunlarının Qarabağ ərazisindən çıxarılmasını tələb edəndə sahiblərinin məsləhətinə uyğun ermənilər bir hərbi təxribat törədir, yeni kənd, qəsəbə və şəhərləri xarabazara çevirdilər. 2020-ci ilin mayında Ermənistan Müdafiə naziri Şuşada çıxışında Azərbaycanı yeni ərazilər tutacağı ilə hədələdi və iyun ayında Tovuz rayonu ərazisində təxribata başladılar. Azərbaycan ordu rəhbərliyini əsgər ailələrindən rüşvət kimi alınmaqla gündəlik istifadə edildiyindən həmişə sarımsaq, pivə qoxuyan rus zabiti əxlaqından milli zabit əxlaqına keçirmədə, qurulmada birinci olan general-mayor Polad Həşimovu yetişdirmələri ilə birlikdə məhv etdilər. Gənclər öndə olmaqla Azərbaycan xalqının böyük əksəriyyəti müharibə tələb etdi. Respublika rəhbərliyi beynəlxalq təşkilatlarla Qarabağ probleminin həlli üçün danışıqları aktivləşdirsə də, xalqın tələbi açıq şəkildə problemin hərbi üsulla həlli, ermənilərin milli mənəviyyatımıza, inam və etiqadımıza, heysiyyətimizə təhqirlərinə cavab verilməsi hakimiyyətdən tələb olundu. Əsgər yaşlı cavanlar, hərbi qabiliyyətli adamlar hərbi çağırış məntəqələrinə gedib orduya yazılmalarını tələb edirdilər. Övladlarını orduya yazdırmaq üçün gətirən anaların sayı günbəgün artırdı.

Hakimiyyət televiziya vasitəsilə açıq bildirdi ki, xalqın müharibə tələb etdiyini deyirsiniz - ancaq çağırış məntəqəsinə cəmi yüz nəfər gəlib (yəqin ki, bu, hakimiyyətin beynəlxalq qüvvələr tərəfindən müharibəyə başlamaqda ittiham olunmasının qarşısını almaq üçün bir taktika idi). Bu söz xalqın böyük narazılığına səbəb oldu. Sabahısı gün hərbi çağırış məntəqələrinə 72 min nəfərin gəldiyi bildirildi, bütün müharibə dövrü könüllülərin hərbi çağırış məntəqələrinə gəlməsi davam etdi. Rus imperiyasının sehrli çubuğu ilə başlayan 27 sentyabr 2020-ci il tarixində başlayan yeni erməni təxribatı Azərbaycan xalqının tələbi ilə Azərbaycan Ordusu özünümüdafiədən əks-hücuma keçdi.

**Azərbaycan türklərinin tarixində, ilk dəfə e.ə. III minilliyin başlanğıcında Aratta dövlət başçısı və sərkərdəsindən başlayaraq davam edən, Nadir şah Əfşarın sərkərdəliyində ən yüksək səviyyəsinə çatan, rus imperiyası tərəfindən unutdurulan, Polad Həşimov tərəfindən bərpa edilən, ənənələşdirilən döyüş zamanı komandirin hərbi heyətin önündə getməsi ənənəsi 44 günlük İkinci Qarabağ müharibəsində rəhbər tutulan ənənə qanununa çevrildi və əhəmiyyətini göstərdi (28, 64).**

Azərbaycan Ordusu 44 günlük fasiləsiz hücumla 30 il erməni-rus hərbi istehkamlarının yaratdığı "keçilməz" adlandırılan istehkam və qurğuları darmadağın edib, erməni ordusunu pərən-pərən edib, 12 min nəfərini fərariyə çevirib, Qarabağı, erməni əsarətində olan olan digər torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan Ordusunda bir nəfər də olsun fərariyə təsadüf olunmadı. Hansı ki, iki əsr idi ki, rus imperiyası Azərbaycan xalqının hərbi ruhunun öldürülməsi, döyüş qabiliyyətinin söndürülməsi üçün gizli və açıq tədbirlər həyata keçirmişdir. İkinci Dünya müharibəsində yetişən azərbaycanlı Sovet İttifaqı Qəhrəmanlarının igidliyinin nümunələşdirilməsi üçün əsərlər yaradılmasına imkan verməmişdir. Babək və Həzi Aslanovun hərbi xidmətindən bəhs olunan filmlərdə hərbi ruhu canlandıracaq psixoloji təsir gücü çox zəifdir. Gənc nəslin hərbi ruhunu yaradan qəhrəmanlıq nümunəsini verəcək yetərincə igidlərimiz var. Mehdi Hüseynzadənin qəhrəmanlıq nümunəsini gənc nəslin psixikasına hopduran "Uzaq sahillərdə" filmi istisna edilərsə, elə bir sənət əsərimiz yoxdur. İkinci Qarabağ müharibəsində Azərbaycan gəncliyinin döyüşə psixoloji səfərbər edilməsində "Uzaq sahillərdə" filminin qəhrəmanı Mehdi Hüseynzadə obrazı istisna edilərsə, Azərbaycan gəncliyinin psixikasını sponton şəkildə ilk dəfə qıdalandıran **Ramil Səfərov** oldu.

İstər çar rusiyası və istərsə də bolşevik rusiyası dövründə ölkə həyatının bütün sahələrində ermənilərin Azərbaycan xalqı üzərində psixoloji üstünlüyü yaradılırdı. Son dövrlər isə Avropa "demokrat"ları bu işdə xüsusi fəallıq göstərirlər. NATO-nun sülhməramlı proqramı çərçivəsində Macarıstanda erməni zabitləri ilə birlikdə təhsilə cəlb edilmiş baş leytenant Ramil Səfərov bu psixoloji təzyiqə məruz qoyuldu. Avropa xristian qardaşlarının əhatəsində olan erməni zabitlər Ramil Səfərovun alçaldılmasına cəhd edirdilər, rəhbərlik isə buna göz yumurdu. Bundan şirniklənən erməni zabitlər nəhayət ki, son sözlərini dedilər - Azərbaycan Bayrağı ilə ayaqqabılarını silib bayrağı zibil qabına atdılar. **Ramil Səfərov isə çox soyuqqanlıqla bayrağı götürüb, erməni zabitin başını kəsib zibil qabına atdı.** İki yüz ildən artıq idi ki, torpaqlarımızda dövlət quran, sərvətlərimizi yeyən, talayan ermənilər himayəçilərinin qanadı altında xalqımızı bu və digər formada alçaldırdı. İlk dəfə Ramil Səfərov nəinki ermənilərə və onun arxalarına, bütün dünyaya elan etdi ki, nəinki Azərbaycan xalqını, onun simvolunu alçaltmaya təşəbbüs edən hər kəsin aqibəti belə olacaq. Beləliklə, Ramil Səfərov Azərbaycan gəncliyinə Azərbaycan xalqının, onun simvolunun qorunmasının birmənalı nümunəsini verdi. Ramil Səfərov erməni zabitinin başını kəsəndə dəqiq bilirdi ki, həmin anda və ya başqa vaxtda bu iş üçün o, öldürülə bilər. Lakin o, tərəddüd etmədən vətənin, millətin şərəfini qorumaq naminə, şüurlu olaraq ölüm gözlənilən yolla getmək qərarını verdi. Şüurlu surətdə Vətən uğrunda ölüm yolunu seçdi. **Ramil Səfərovun bu davranışı o zaman Azərbaycan mətbuatında və geniş kütlə arasında uzun müddət müzakirə olundu. Təbii ki, məsələyə hər kəs öz dünyagörüşü çərçivəsindən baxırdı. Ramil Səfərovun Vətən naminə şüurlu ölüm yolu seçməsi nümunəsi yaşlı nəsli sovet kosmopolitizmindən ayıra bilməsə də, gənc nəsli Vətən naminə həyatını şüurlu qurban verməyə hazır olmaq yoluna keçirmədə dönməz mənəvi-psixoloji inkişaf yoluna saldı, vətənin müdafiəsi yolunda ölümə hazır olma kimi tarixi milli dəyəri bərpa etdi. Gənc nəslin milli-mənəvi inkişafı yolunda sponton hadisə oldu.**

**Bunun ardınca Mübariz İbrahimovun 2010-cu ilin iyunun 18-dən 19-na** keçən gecə heç kimə bildirmədən, hara getməsi haqqında məktub yazıb qoyaraq Tərtər rayonu Çaylı kəndi yaxınlığındakı mülkü əhalinin əsəbləri ilə oynayan erməni hərbi düşərgəsinə təkcə hücum edərək 4 erməni əsgərini öldürüb 45 nəfərdən çoxunu yaralaması **Vətən naminə şüurlu ölüm yolunu seçmə nümunəsi idi.**

***(Davamı 7-ci səhifədə)***

*(Əvvəli 6-cı səhifədə)*

Bunun ardınca **2016-cı ildə gənc kəşfiyyatçı Pəncəli Teymurovun Vətən naminə** əbədiyyət yolunu seçməsi, **general Polad Həşimovun döyüş zamanı əsgərin önündə getməsi və əsgərə doğma övladı kimi yanaşması** İkinci Qarabağ müharibəsi ərəfəsi gənc nəsildə Vətən yolunda şüurlu **həyatını qurban vermə dəyərlərinin formalaşmasını deməyə əsas verir.**

**Xocalı şəhidi Əlif Hacıyev bu dəyərin təmsilçilərindəndir.** Tədqiqatımızla bağlı mən cəmi beş nəfərin adını çəkə bildim. Bütün Şəhidlərimizin ruhundan üzr istəyirəm, qazilərimizin, həqiqi hərbçilərimizin qarşısında baş əyirəm. Qarabağ müharibəsinin bütün iştirakçıları bu dəyərin yaradıcılarıdırlar. Bu milli dəyəri tədqiq edən, gənc nəslə aşılayan etnoloq və psixoloqlarımız təəssüf ki, yoxdur.

Yeni fundamental Psixologiya sübut edir ki, "ölümə meyl Psixikada yaşamağın formalaşma dövründə "təhlükəyə və məhvə" meyl kimi hallar daxilində yaranır. Təhlükəyə və məhvə olan meyllər də asılı olmayan psixikadaxili proseslər formasında yaranır. Artıq formalaşmış Psixikada insan kimi yaşamaq xüsusiyyətləri ətraflı şəkildə yarandıqdan sonra təhlükəyə və məhvə olan meyl ölümə olan təbii meyllərə çevrilməyə başlayır.

tiki sübut edən Azərbaycan xalqı, elmi cəhətdən aşkarlayan da Azərbaycan elmi oldu. Həyat və obyektiv elmi tədqiqat mənəvi dəyərlərin milli-mənəvi varlığın əsası olmasını sübut edir. Təəssüf ki, tarixçi, etnoqraf, hətta fəlsəfə tədqiqatçılarımız hələ də maskalı üsullarla adını çəkmədən K.Marksın meymununu tərənnüm etmədədirlər, ictimai elmlər ideoloji və metodoloji cəhətdən bu təbəqənin təzyiqi və nəzarəti altındadır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:**


1. Avesta. B., 2017.
2. "Avesta". 1-ci kitab. Fars dilindən tərcümə edən və çapa hazırlaayanı İsmayıl Şəms. B., 1995.
3. Ş.Dədəyev. Psixika - insan orqanizmində psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi. Yeni fundamental Psixologiyanın əsasları. B., 2007.
4. M.Ə.Rəsulzadə. Bakı məsələsinə dair mülağat. Əsərləri, V cild. B., 2014.
5. X.Xəlilli. Etnosun ilkin təşəkkül mərhələsi və terminologiyası. - Müasir fəlsəfə: İdrakın ən yeni istiqamətləri. B., 2014.
6. X.Xəlilli. Çarəsiz qalanda insanlığın sığındığı fəlsəfə. B., 2023.
7. X.Xəlilli. Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş. B., 2022.
8. Ümumi hüquq və dövlət nəzəriyyəsi. B., 2014.


# MƏNƏVİ DƏYƏRLƏR MİLLİ VARLIĞIN ƏSASIDIR

*(Əvvəli 6-cı səhifədə)*

Təhlükəyə və məhvə olan meyllər Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında mühüm əhəmiyyət kəsb edir" (3, 220).

Yeni fundamental Psixologiyanın Psixikada insan kimi yaşamaq xüsusiyyətlərinin formalaşması haqqında elmi müddəalar İkinci Qarabağ müharibəsində Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlığın mənəvi-psixoloji əsaslarının obyektiv, elmi səviyyədə öyrənilməsini tələb edir. Deyilənlərin hamısı ilə razıyam və onu da təkrar etmək istəyirəm ki, hər bir canlının mövcudluq üsulunu onun genetik əsasları, təməli verir. **Azərbaycan əsgərinin qəhrəmanlıq xüsusiyyətləri göstərməsində onun həyat tərzi, hərbi təlim, hərbi strategiya və taktikanın düzgün, yüksək səviyyədə təşkil olunması ilə bərabər əcdadlarının ruhu və genləri təməl keyfiyyətlərdir.**

XIX əsrdə Azərbaycanda olmuş böyük fransız yazıçısı Azərbaycan türklərində gördüyü süstlüyə təəssüf edərək yazırdı: "Bu xalq vaxtı ilə müzəffər olmuş, ürəyində indinin özündə də döyüşkən olaraq qalır". O, Qarabağ xanı Mehdiqulu xanın arvadı və qızı ilə görüüşünü belə xatırlayır: "Anaya qırx, qızına isə iyirmi yaş vermək olardı. Hər ikisi milli geyimdə idi. Qəşənglikdən daha çox bahalı olması ilə seçilən nazik paltarda cazibədar görünən gənc xanımın yanında iki uşağı da var idi. Anası kimi milli geyimdə olan üç-dörd yaşlı qız uşağı maraq dolu, böyük qara gözlərini bizdən çəkmirdi. Beş-altı yaşlı oğlan uşağı isə nənəsinin dizinə sıxılmış və sövq-təbii ilə kiçik əlini belindən asılı olan xəncərin üstünə qoymuşdu. Mən mat qalmışdım. Bu, fransız qadının uşağın oynamasına icazə verə biləcəyi oyuncaq xəncər deyildi, oğlanın belindəki əsl iti xəncər idi. Azərbaycan qadınları üçün bu, birinci uşaq oyuncağı hesab olunur" (29, 45, 55).

**Tarix elminin inkişafında həqiqətən böyük xidməti olan K.Yaspersin Homa Sapiensi insana çevirən səbəbin, "qorxu və mərdliyin" yaratdığı mənəvi dəyərlərin axtarışı tövsiyyəsi bizə milli-mənəvi ruhun dərinliklərinə yetərincə nüfuz etməyə imkan verdi. Bu sualın cavabını həyatda prak-**


9. R.Məmmədov. Zərdüştlükdə əxlaq təlimi: Xeyir və Şər. - Etika, estetika, aksilogiya: epistemoloji problemlər. B., 2020.
10. Z.Şabanov. Milli-mənəvi dəyərlərin transformasiyası kompleks proses kimi. - Etika, estetika, aksiologiya: epistemoloji problemlər. B., 2020.
11. F.Ələkbərli. Azərbaycan Türk mentallığı və milli-mənəvi dəyərlər probleminə tarixi-fəlsəfi baxış. - Etika, estetika, aksiologiya: epistemoloji problemlər. B., 2021.
12. E.Təhməzova. Maddi və mənəvi dəyərlərin sosioloji təhlili. Etika, estetika, aksiologiya: epistemoloji problemlər. B., 2020.
13. Z.Hacıyev. Fəlsəfə. B., 2001.
14. Z.T.Qolenkova... Ümumi sosiologiya. B., 2007
15 K.Yaspers. Tarixin mənası və təyinatı. B., 2008.
16. L.Qumilyov. Etnogenez və yerin biosferi. B., 2005.
17. G.Fromm. Psixoanaliz i gtika. M., 1993.
18. İ.L.Zelenkova. Osnovı gtiki. Minsk., 2001.
19. A.V.Razin. Gtika. M., 2004.
20. P.S.Qureviç. Kulturoloqiə. M., 2006.
21. T.Səfərli. Marksist-leninçi etikanın məsələləri. B., 1970.
22. Q.Sadıqov. Etika. B., 1971.
23. F.K.Kessedi. Ot mifa k loqosu. M., 1972.
24. X.Xəlilli. "Dədə Qorqud" dastanında zaman oxu müstəvisində mifoloji təfəkkürün mərhələləri. - Mədəniyyət: postqeyri - klassika və postmodernizm dövrü. B., 2015.
25. Sov.İKP MK Siyasi Bürosunun SSRİ və dünya Kommunist partiyalarına direktivi. Moskva - 2.6.1947. Tamamilə məxfidir. K.A.A.S.S.113. XK Əmr (003) 47. "Azərbaycan müəllimi" qəzeti, 21.X.1997.
26. S.D.Maksimenko. Qenetiçeskaə psixoloqiə. M. - K., 2000.
27. Ə.S.Bayramov. Psixoloji düşüncələr. B., 1994.
28. Azərbaycan tarixi. B., 1994.
29. A.Düma. Qafqaz səfəri. B., 1985.